# Nizami Gəncəvinin “Sirlər xəzinəsi” məsnəvisində tarixi şəxsiyyətlər

**XII əsr farsdilli Azərbaycan poeziyasının və həmçinin dünya ədəbiyyatının müqtədir nümayəndəsi, ölməz yaradıcılığı ilə bütün bəşəriyyətə məxsus olan Nizami Gəncəvinin ədəbi əsərləri təkcə misilsiz sənətkarlıqla qələmə alınmış bədii örnəklər deyil, həmçinin zəngin elmi, tarixi biliklərin bir araya toplandığı qiymətli mənbələrdir. Şair məsnəvilərində yalnız öz dövrünün hadisə və şəxsiyyətləri ilə bağlı məlumat verməklə qalmamış, eyni zamanda xeyli əvvəlin olayları və tarixi simaların da əsərlərinə “gətirərək” həm onlara, ictimai-siyasi fəaliyyətlərinə münasibətini bildirmiş, həm də bu insanlarla bağlı, daha öncədən xalq arasında yayılmış rəvayətləri və ya sırf yaradıcılıq təxəyyülünün məhsulu olan əhvalatları qələmə alaraq, özünün obrazlar çələngini zənginləşdirmişdir. Akademik Teymur Kərimli qeyd edir ki, “Nizaminin elə bir poeması yoxdur ki, orada tarixi şəxsiyyət iştirak etməsin”. Bu baxımdan böyük şairin “Sirlər xəzinəsi” məsnəvisi də tarixi şəxsiyyətlərin maraqlı obrazları ilə diqqəti cəlb edir.**




“Xəmsə”nin ilk məsnəvisində şairin bütün qəlbi və ruhu ilə mədh etdiyi tarixi şəxslərdən biri, şübhəsiz ki, Məhəmməd Peyğəmbərdir. İslam peyğəmbərinin obrazının Nizami yaradıcılığındakı yeri və rolu haqqında akademik Teymur Kərimlinin müşahidələri maraq doğurur.O, yazır: “Orta əsrlərin başqa sənətkarları kimi Nizami üçün də islam dininin prinsipləri istər ictimai, istərsə də fərdi həyatda bir fəaliyyət proqramı idi. Xüsusən islam peyğəmbərinin həyatı və fəaliyyəti Nizami üçün bir ideal, örnək, təqlid mənbəyi idi. Bu cəhət Nizami poemalarının giriş hissələrində öz bədii əksini tapmış nə`t və meracnamələrdə çox yaxşı əks olunmuşdur. Bir sıra epizodlarda peyğəmbərin həyatından konkret faktlar verilsə də, bütövlükdə Məhəmməd Peyğəmbər Nizami poemalarında konkret tarixi şəxsiyyət kimi deyil, bütün dövrlərin və xalqların ən ideal insanı kimi, ...mücərrəd tarixi şəxsiyyət kimi çıxış edir”.

“Sirlər xəzinəsi”ndə İslam peyğəmbərinin vəsfinə altı bölüm (beş nə`t və bir merac) həsr edən Nizami özünü “onun gülü üçün oxuyan bülbül” adlandırır. Məlumdur ki, “gül” həm də İslam dininin təşbihidir.

*Nizaminin təbi onunçün (açılmış) güldür,*
*Onun gülü üçün gözəl səsli bülbüldür.*

Şair əsərdə peyğəmbərin həyatına aid tarixi faktlardan da bəhrələnmiş, hər bir hadisə və olayın bu müqəddəs şəxsin xarakterindəki ayrı-ayrı cizgilərin açılması üçün istifadə olunmasında poetik istedadının gücünü əsirgəməmişdir. Qeyd edək ki, “Xəmsə”də Məhəmməd Peyğəmbərin obrazı ayrıca və ətraflı şəkildə işlənilmiş və “Sirlər xəzinəsi”ndə peyğəmbərin meracı və nə`ti bölmələrinə kifayət qədər dəyərli elmi tədqiqatlar həsr edilmişdir.

Məlumdur ki, Nizami Gəncəvi “Xəmsə”sinə daxil olan hər bir məsnəvisini ayrı-ayrı türk hökmdarlarının adına qələmə almışdır. O cümlədən “Sirlər xəzinəsi”ni də Ərzincan və Ərzurum hakimi, atabəy Eldənizin vassalı, Bənu-Mənqucək sülaləsinin görkəmli nümayəndəsi, altmış ildən artıq hakimiyyətdə olmuş Fəxrəddin ibn Davud ibn İshaq Bəhram şaha (1162-1225) ithaf etmişdir.

Klassik epik şeir ənənələrinə əsasən əsərdə məmduha xüsusi fəsillər həsr edildiyindən Nizami də adıçəkilən hökmdarların hakimiyyətindən, fəaliyyətindən bədii əsərin imkan verdiyi çərçivə daxilində, bəzən obrazlı təfəkkürün mübaliğə və təşbihləri ilə reallıqdan bu və ya digər dərəcədə uzaqlaşsa da, hər halda gerçəklikləri də bədii örtüyə bürüyərək bəhs etmişdir. Bütün bunlar bir daha təsdiq edir ki, Nizami Gəncəvinin əsərləri yüksək hikmətamiz-fəlsəfi fikirlər, ali bəşəri və humanist dəyərlərin bədii ifadəsi, insan zəkasının fövqündə dayanan sənətkarlıq nümunəsi olmaqla yanaşı, həm də Azrəbaycan tarixinin öyrənilməsi, dövlət xadimləri və dövlətçilik tariximizin araşdırılması üçün dəyərli və etibarlı mənbələrdir.

* * *

XIII əsr tarixçisi, Səlcuq dövlətinin tarixindən bəhs edən “Rahət əs-südur...” əsərinin müəllifi Məhəmməd Rəvəndi Nizami Gəncəvinin məmduhu Bəhram şah ibn Davud haqqında yazır: “Can qurban etmək dərəcəsində bənzərsiz və xoş niyyətli damad əmir, aləmin böyüyü, qoşun başçısı, ədalətli, qalib, müzəffər, xoş iqbal Fəxrəddin nasirül-islam (İslamın fatehi) məlikül-aləmra (aləmin hökmdarı) Bəhramşah Qazi2 abxaz döyüşündə aydın oldu ki, canını fəda etdi və sədaqətli bəndə kimi döyüşdü”. Əsərin tərtibçisi görkəmli islam alimi və filosofu Əllamə Məhəmməd İqbal “qazi” sözünü “2” indeksi ilə işarələmişdir. Ətəkdə isə izah vermişdir: “Məlik Fəxrəddin Bəhram şah Qiyasəddin Keyqubadın və Süleyman şah Rüknədinin dövründə Ərzincanın sahibi idi. O, Süleyman şahın kürəkəni idi və 599-cu ildə onunla Abxaziyaya getdi və fədakarlığı üzündən düşmənin əlinə əsir düşdü. “Müxtəsər Səlcuqnamə”də yazılmışdır ki, Məlik Fəxrəddin Bəhram şah xoş xasiyyət, himmət sahibi və həddindən artıq mərhəmətli idi və onun padşahlığı dövründə Ərzincan kamalla firavan idi və Nizami Gəncəvinin “Məxzənül-əsrar” (“Sirlər xəzinəsi”) kitabı onun adına yazılmışdır və bu xidmət müqabilində şairə beş min dinar və beş baş qatır mükafat göndərməyi əmr etmişdi”.

Tədqiqatçı alim Siracəddin Hacı isə orta əsr mənbələrinə istinadən Fəxrəddin Bəhram şahı belə təqdim edir: “Fəxrəddin Bəhram şah Mənqücüklülərin ən möhtəşəm məlikidir. O, 1162-ci ildən 1225-ci ilədək, 63 il Kəmah-Ərzincan Mənqücüklülərinin şahı olmuşdur. Tarixi qaynaqlar Fəxrəddin Bəhram şahın bu özəlliklərini qeyd edir: o, çox ağıllı, gözəl xasiyyətli, xalqa, əsgərlərə qarşı şəfqətli idi. Şair və alimləri çox sevərdi. Bəhram şah düzlüyü ilə seçilirdi, o, şərəfli, gözəl əxlaq sahibi, ədalətli, səxavətli hökmdar idi”.



Nizami Gəncəvi “Sirlər xəzinəsi”nin “Kitabın yazılma səbəbi” hissəsində məmduhu qismində nə üçün məhz Fəxrəddin Bəhram şah ibn Davudu seçməsinin səbəbini ölməz misraları ilə tarixə yazır:

*“Bu gözəli nişanlamaq üçün bütün şahların adına püşk atdım.*
*Bu püşk gəlib sənin adının üstünə düşdü”.*

Tarixi mənbələr göstərir ki, Fəxrəddin Bəhram şah Azərbaycan Atabəyləri ilə yaxşı münasibətdə olmuş, atabəy Eldənizin apardığı hərbi əməliyyatlarda yaxından iştirak etmişdir.

Akademik Ziya Bünyadov Nizami Gəncəvinin “Xəmsə”sinə daxil olan ilk əsərin Fəxrəddin Bəhram şaha ithaf edilməsi və hökmdarın da əsərə yüksək qiymət verməsindən bəhs edərkən İbn Bibidən aşağıdakı parçanı sitat gətirir: “Bu ildə (574-cü hicri ili) söz sərrafı Xoca Nizami Gəncəvi ali həzrətin adına şeirlə, sanki iri mirvarilərdən ibarət “Məxzənül-əsrar” (yəni “Sirlər xəzinəsi”) kitabını düzür və bəxşiş olaraq ali həzrətin hüzuruna göndərir. Şah mükafat olaraq şairə beş min dinar qızıl, yüklənmiş beş at, beş qatır və zinətlə tikilmiş fəxri geyimlər göndərir. O, bu kitabı çox tərifləyərək deyir: “Mümkün olsaydı, şeirlə mirvari kimi düzülmüş bu kitaba mükafat və bəxşiş olaraq böyük xəzinə göndərərdim. Çünki həmin kitabın sayəsində mənim adım dünyada daimi yaşayacaqdır”. Bu sözlərdən Bəhram şahın nə qədər uzaqgörən olduğu, sözə, sənətə yüksək dəyər verdiyi aydın olur.

Nizami Gəncəvi poemanı Ərzincana aparıb Fəxrəddin Bəhram şaha özü təqdim etmək istəmiş, lakin yollar təhlükəli olduğundan fürsət tapan kimi başqası ilə yollamağa məcbur olmuşdur. Bu haqda M.Ə.Rəsulzadə də “Azərbaycan şairi Nizami” əsərində bəhs etmişdir. Şair özü isə əsərində yazır:

*Hazırlaşırdım ki, bu bir-iki ayda*
*Şahın önündə yeröpmə mərasimini təzələyim.*
*Lakin (ətrafa) çəkilmiş halqadan*
*Qıraqa çıxmağım üçün yol bağlanıbdır.*
*Sənin yüksək hüzuruna gəlmək üçün*
*Mən öz dərimdən (belə) çıxmaq istəyirdim.*
*Lakin gördüm ki, yollar şirlərlə doludur,*
*Önüm də, arxam da qılınc və xəncərdir.*

“Şahın önündə yeröpmə mərasimini təzələyim” misrasından aydın olur ki, bu əsəri yazmazdan əvvəl Nizami Bəhram şahla görüşmüş. Həmin parçada həm də Gəncə ətrafında müharibə getdiyinə işarət edilmişdir. Professor Rüstəm Əliyev qeyd edir ki, şair “ola bilsin ki, atabəy Cahan Pəhləvanın gürcü çarı ilə vuruşmasını nəzərdə tutmuşdur” .

Şair Məlik Fəxrəddin Bəhram şah İbn Davudla sitayiş bəhsində onun haqqında “İslam padşahı” ünvanını işlətmişdir. Hökmdarın səxavəti, insanpərvər olmasını dönə-dönə vurğulayan müəllif onun hakimiyyətinin sərhədlərindən, hərbi fəaliyyətindən və qüdrətindən də sözün, bədii düşüncənin bütün imkanlarından faydalanaraq bəhs edir:

*O, cahan mülkünü hamıya paylayandır,*
*O, həm Ərmən padşahıdır, həm də Rumun şahıdır.*
*Onun taxtı həm sultan, həm də xəlifə taxtıdır,*
*Rumu və Əbxazı fəth edən odur.*

Bəhsin sonunda şair maraqlı bədii təsvir vasitəsindən, təşxis poetik fiqurundan istifadə edərək hökmdarı sözə, şeirə və sənətkara qiymət verməyə çağırır, məcazlı, obrazlı dillə yazdığı əsərə dəyər verilməsi istəyini qələmə alır.

*Səxavətin qulağını burub ona ədəb öyrət,*
*Söz şamının nəfəsini alovlandırar.*

Professor Rüstəm Əliyev beyti belə izah edir: “Səxavətə qulaqburması ver ki, yaxşı çalışsın: o, öz vəzifəsini yaxşı yerinə yetirsə, şeir şamı da yaxşı yanar; şairlərin ehtiyacları olmasa, söz şamını alovlandırarlar” .

Nizami haqqında bəhs açdığımız hissəni şaha dua-sənalarla bitirir, taleyi kimi fəaliyyətinin, hökmranlığının da xeyirli olması diləyini bildirir:

*Sənin fateh bayrağın (həmişə) ucalsın,*
*Düşmənlərinin başı isə qələm kimi yerə dikilsin.*

Təbii ki, orta əsr şeirinin ənənələrinə uyğun olaraq şair öz məmduhunu tərif edərkən bədii sözün imkan verdiyi mübaliğə və müqayisələrdən də yerli-yerində istifadə etmişdir.

* * *

“Sirlər xəzinəsi”ndə xatırlanan tarixi şəxsiyyətlərdən biri də əfqan şairi Sənai Qəznəvidir. Nizami Sənainin adını əsərində çəkməsə də, haqqında danışacağımız beytlərdə əfqan şairindən bəhs etdiyi şübhəsizdir. Əfqanıstanın Qəznə şəhərində anadan olmuş böyük filosof, sufi şair Həkim Əbdülməcd Məcdid ibn Adəm Sənai Qəznəvi Sultan Bəhramşah Qəznəvinin (1118-1152) sarayında yaşadığı illərdə “Hədiqətül-həqaiq” əsərini yazmışdır. Və məlumdur ki, Nizami Gəncəvi özünün “Sirlər xəzinəsi” məsnəvisini Sənainin əsərindən təsirlənərək qələmə almışdır. Şair sələfini və onun əsərini, hər iki əsərin iki Bəhram şaha yazıldığını xatırladaraq özünün qələm məhsulu ilə Sənainin poemasını müqayisə edir və bir növ, orta əsr nəzirələrinin tələblərinə uyğun olaraq həm “Hədiqətül-həqaiq”ə yüksək qiymət verir, həm də öz “incisinin” daha yaxşı olduğunu vurğulayır:

*Birincisi qədim xəzinədən qızıl tökərdi,*
*Bu isə yeni dəryadan dürr saçır.*
*O, öz bayrağını Qəznədə qaldırdı,*
*Bu isə rəqəmini Rum sikkəsinə vurdu.*

Şair bildirir ki, Sənainin “Hədiqətül-həqaiq” əsəri Qəznə hakiminə təqdim olunub qiymətləndirildi və öz şöhrət bayrağını qaldırdı. “Sirlər xəzinəsi” isə öz sikkəsini Rum-Bizans sultanı Bəhram şahın adına vurdu. Nizami Sənainin sözlərinin qızıla bərabər olduğunu desə də, “öz qızılının” daha yaxşı olduğunu da söyləməkdən çəkinmir. Şair hətta məsnəvilərin həcminə də diqqəti cəlb edir.

Məlumdur ki, “Hədiqətül-həqaiq” 11 minə yaxın, “Sirlər xəzinəsi” isə 4500 misradan ibarətdir. Şair əsərinin Sənainin poemasından həcmcə kiçik olsa da, mənaca ondan dərin olduğunu bildirir. Göründüyü kimi, Nizami Sənainin adını birbaşa çəkmir, lakin etdiyi işarələrdən söhbətin kimdən getdiyi tam aydın olur.

* * *

Nizami Gəncəvi “Sirlər xəzinəsi”nin dördüncü məqalatında daha bir tarixi hökmdarın - Sultan Mahmud Qəznəvinin başına gələn bir əhvalata işarə edərək zülmkar şah və hakimləri məzlumların ah-naləsi, bəddua və qarğışları ilə qorxudub zülmkarlıqdan çəkindimək istəyir:

*Bir-iki kişinin incimiş hümməti*
*Gör Mahmudun bədənini nə günə saldı.*

Mahmud Qəznəvi (999-1030) Hindistanı fəth edəndən sonra hind kahin və yoqları öz maqnetizmi (hümməti) vasitəsilə Mahmudu dəhşətli xəstəliyə mübtəla edirlər. Təbiblər onu müalicə etməkdə aciz qalırlar. Bu zaman Mahmuda xəbər çatır ki, onun xəstəliyinin səbəbi kahin və yoqların dua və ibadətidir. Mahmud onları məcbur edir ki, ona şəfa duası oxusunlar və bundan sonra o sağalır. Elə həmin məqalatda şair daha bir tarixi şəxsiyyəti - Rabiə və onunla bağlı məşhur əhvalatı xatırladır.

Məlumdur ki, Rəbiə əl-Ədəviyyə VIII əsrdə Bəsrədə yaşamış, sonralar övliya ləqəbi ilə şöhrətlənmiş tarixi şəxsiyyət olmuşdur. Filologiya üzrə fəlsəfə doktoru Zəhra Allahverdiyeva yazır ki, “sufizmin Allaha məhəbbət anlayışı “Qurani-Kərim”dəki bu kimi elementlərdən alınmış və ilk çağırışlar şəklində VIII əsrdə Bəsrədə yaşamış, sonralar övliya ləqəbi ilə şöhrətlənmiş Rəbiə əl-Ədəviyyənin adı ilə bağlıdır”. Şair əsərində məşhur Quran rəvayətinə işarə edir. “Rəbiə Bəsrəli bir gün səhrada bir itin susuzluqdan can verdiyini görüb hörüklərini kəsir, paltarını ona bağlayıb quyuya salır. Sonra o, paltarını sıxaraq itə su verir və onu ölümdən xilas edir. Bu hərəkətinə görə bu mömin qadın övliya zümrəsinə daxil edilir”.

Nizami Gəncəvi “Sirlər xəzinəsi” məsnəvisində bir sıra tarixi şəxsiyyətləri bədii obraz kimi də işləmişdir. Misal üçün, Adil Nuşirəvan, Sultan Səncər, Harun ər Rəşid, Süleyman peyğəmbər, İsa peyğəmbər və başqaları kimi tarixi şəxsiyyətlər şairin obrazlı qələmilə bədii biçimdə yenidən canlandırılmış, ibrətamiz hekayə və rəvayətlərdə müəllifin məqsədinin illüstrativ ifadəsinə xidmət etmişlər.

**Təhminə BƏDƏLOVA,**
**AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent**

## Mütəfəkkir şairin hikmət dünyası

Heç qorxma acizə zülm edənlərdən,
Yoxsa qul olarsan onlara hökmən.

❖❖❖

Şir kimi hücum et, şirə rast gəlsən,
İt görən zamanda gəl baş qoşma sən.

❖❖❖

Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir hədər.

❖❖❖

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan
Yaxşıdır yarımçıq papaqçılıqdan.

❖❖❖

Bir ürəkdə olmaz iki sevgili,
İki ürəklinin doğru olmaz dili.

❖❖❖

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?

❖❖❖

Poladdan dağ olsa da inan
Onu parça-parça dağıdar insan.

❖❖❖

Bu dərya yolunda vardır çox zəhər,
Əziyyət çəkənlər dürr əldə edər.

❖❖❖

Elə adamlar axtarın ki,
onlarla yaxşı kitaba bərabər olsun, söhbət
Elə kitablar da axtarın ki,
mütaliəsi filosoflarla söhbətə dəysin!

Səni boğmaq istəyən dərin bilgili düşmən,
cahil dostdan yaxşıdır.

❖❖❖

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

❖❖❖

Sirrini bilməsin evdə divarlar,
Divar dalında da çünki qulaq var.

❖❖❖

Çox iti beyinlər yatan oldular,
Axırda saxsı qab satan oldular.

❖❖❖

Bəzən çətin zamanda ceyran belə aslan olur.

❖❖❖

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

❖❖❖

Çox gözəl olsa da eybi gizlətmək,
Dost dostun eybin örtməsin gərək.

❖❖❖

Qəlbini çalmasın bu mal, bu dövlət.
Azı bir zillətdir, çoxu fəlakət.
Göydə ol, yerdə ol, fərqi yox bunun.
Torpaqsan, yenə də torpaqdır sonun.

❖❖❖

Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən gül verər, zülm etsən tikan.

❖❖❖

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.

Azərbaycan 2021.- 2 aprel.- S.10.